*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 370-375*

https://doi.org/10.62837/2025.3.370

**İMANOVA İRADƏ İSA QIZI**
**iimanova@amu.edu.az**
**ALLAHVERDİYEVA FƏRİDƏ HÜSEYN QIZI**
**faridahaji1291@gmail.com**
**Azərbaycan Tibb Universiteti**

# QLOBALLAŞAN DÜNYA VƏ AZƏRBAYCAN MƏDƏNİYYƏTİ

***Açar sözlər:*** *Mədəniyyət, teatr sənəti, qloballaşma, mədəniyyətlərarası dialoq, incəsənət.*
***Key words:*** Culture theatre art, globalization, intercultural dialogue, arts.
***Ключевые слова:*** культура, театральное искусство, глобализация, межкультурный диалог, искусство.

Müasir qloballaşma prosesləri başqa sahələrlə yanaşı həm də mədəniyyətin inkişafı ilə genişlənməkdədir. Zaman-zaman çeşidli mədəniyyət və incəsənət növləri müxtəlif xalqlar arasında dünyanın bir yerindən digər yerinə yayılmışdır. Mədəni qloballaşma üçün dünyanın müxtəlif ölkələri arasında mədəni əlaqələrin get-gedə yaxınlaşması beynəlxalq əlaqələrin artmasına da güclü təsir göstərir. Bu həm də bütün dünyada milli mədəniyyətlərin genişlənməsinə gətirib çıxarır. Bu gün hər yerdə yayılmış internet, turizm və s. mədəni qloballaşmanın inkişafında böyük rol oynayır. Qloballaşmanın əsas cəhətlərindən biri də odur ki, hər bir xalqa şərait yaradır ki, öz mədəniyyətini təbliğ etsin. Mədəniyyətin qloballaşması həm də dünya mədəni dəyərlərinin qarşılıqlı əlaqəsini *təşkil* edir. Xalqlar arasında mədəni əlaqələrin genişlənməsi eyni zamanda həmin xalqların bir- birinə yaxınlaşmasını şərtləndirir. XXI əsrin əvvəllərində qloballaşmanın yeni çağırışları ölkələrarası mədəni əlaqələrin inkişafının əhəmiyyətini artırmışdır. Mədəni əlaqələr xalqlar və dövlətlər arasında ayrı-seçkiliyi aradan qaldıran mühüm amil olaraq dövlətlərarası münasibətlərin zəngin palitrasının inkişafına zəmin yaradır.

Hazırda Azərbaycan Respublikası UNESCO (Birləşmiş Millətlərin Təhsil, Elm və Mədəniyyət Təşkilatı) İSESCO (İslam Konfransının Təhsil, Elm və Mədəniyyət Təşkilatı). Avropa Şurası kimi beynəlxalq və regional qurumlarla əməkdaşlıq edir. Qloballaşmanın geniş vüsət almasından asılı olmayaraq hər bir xalq milli kökə bağlılığını qoruyur. Çünki bu bağlılıq kökündən qoparsa qloballaşmanın gətirdiyi fəsadlar daha böyük olar. Millilikdən, mənəviyyatdan, mənəvi dəyərlərdən və dindən qopmamaq şərtilə qloballaşmanı qəbul etmək olar. Qloballaşma həm də mədəni dəyərlərin qarşılıqlı mübadiləsini və sintezini tələb edir. Qloballaşma inkişaf etmiş Qərb dövlətlərində məqbul sayılan ideoloji standartlar əsasında baş verdiyindən, müsəlman dünyası bu prosesdə onlara ayrılmış yeri müəyyən etmək zərurəti ilə qarşılaşmışdır [1.s.127]. Ümummilli lider Heydər Əliyev Azərbaycanın gələcək uğurlu inkişafı üçün öz siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik

ənənəsini inkişaf etdirib onu keyfiyyətcə yeni müstəviyə keçirdi. Ulu öndər "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir" kimi sözləri ilə əslində multikulturalizmin konturlarını cızırdı. Ulu öndər çıxışlarının birində devirdi: "Xalqımız qədim xalqdır, böyük *tarixə,* böyük mədəniyyətə malik olan xalqdır. Hər bir xalqın mədəniyyəti onun böyüklüyünün, müdrikliyinin, birliyinin təcəssümüdür. Azərbaycan xalqı qədim tarixə və mədəniyyətə malik bir xalq kimi artıq bütün dünyada tanınmışdır. Azərbaycan mədəniyyətinin yaranması və mənəvi rolunun yüksək dəyərləndirilməsində tarix boyu bir yox şəxsiyyətlərin xidməti olmuşdur ki, yeni dövrün də belə bir nəhəng şəxsiyyəti məhz Heydər Əliyevdir. Azərbaycan mədəniyyətinin hərtərəfli inkişafında və onun zəngin mədəni irsinin dünya mədəni aləminə çatdırılmasında Heydər Əliyev çox böyük

rol oynamışdır və bu fəaliyyət respublikanın gələcək mənəvi siyasi həyatı üçün örnək və irsə münasibətdə siyasətin konsepsiyasının yaranması baxımından mühüm əhəmiyyətə malikdir [2.s.10]. Qloballaşma şəraitində mədəniyyətlərarası dialoqun təbliğində problemlər də mövcuddur, onların həlli təkcə bir dövlətin apardığı siyasətdən, bir xalqın istək və arzularından deyil, ümumi inkişafın və dünya xalqlarının bu mövzuya yanaşması baxımından da çox asılıdır. Qloballaşan dünyada özündə mədəniyyətlərin inteqrasiyasını, fərqli sivilizasiyaların ən dəyərli tərəflərini cəmləyən estetik-ədəbi nümunələr yaratmaq, onu daha geniş insan kütlələrinə çatdırmaq işində yaradıcı intellektuallara elmi-texniki tərəqqinin son nailiyyətləri yazılı və electron KİV, internet, elektron informasiya daşıyıcıları, mobil rabitə vasitələri böyük yardımçı olur. ABS-da yaşayan soydaşlarının həyatından yazan yapon yazarının romanını, yaxud da İstanbulda sərgisi açılmış Azərbaycan rəssamının yaradıcılıq uğurları barədə dünyanın hər yerində yaşayan insanlar sürətlə xəbər tutur, yetər ki, maraq və həvəs olsun [3.s.17].

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları Azərbaycanın dünya birliyinə mədəni inteqrasiyasının bariz nümunəsi oldu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir kı, "Biz Avropa və Asiya arasında yerləşirik. Əlbəttə ki, bu coğrafi yerləşmə Azərbaycanın mədəni müxtəlifliyində öz rolunu oynamışdır. Əsrlər boyu bütün mədəniyyətlər, dinlər və etnik qrupların nümayəndələri Azərbaycanda sülh və sabitlik şəraitində bir ailə kimi yaşamışlar. Biz fəxr edirik ki, bu müsbət meyillər müstəqillik illərində daha da güclənmişdir" [4.s.2]. 2008-ci ildə ölkə başçısı Prezident İlham Əliyev tərəfindən mədəniyyətlər arasında dialoqun qurulması məqsədilə "Bakı prosesi" təşəbbüsü irəli sürülmüşdür. İlk dəfə 2008- ci ilin 2-3 dekabr tarixində "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında və sülhün əsasları" mövzusunda konfrans keçirildi. 7-9 aprel 2011-ci il tarixində Bakıda I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu yüksək səviyyədə keçirildi. Forumda 102 ölkədən nümayəndə, 10-dan çox beynəlxalq qurumdan rəhbər şəxslər, 20-yə yaxın ölkədən nazir, ümumilikdə beş qitədən 500-ə yaxın xarici ölkə nümayəndəsi iştirak etdi. 29 may – 1 iyun 2013-

cü il tarixində Bakıda II Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, 18-19 may 2015-ci ildə Bakıda “Müştərək təhlükəsizlik üçün mədəniyyətləri paylaşaq" mövzusunda III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Qeyd edək ki, bu forum özündə üç mühüm komponenti - birgəlik, təhlükəsizlik və mədəniyyəti əsas götürmüşdü. 2017-ci il mayın 5-də UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, İSESCO-nun tərəfdaşlığı ilə Bakıda "Mədəniyyətlərarası dialoqun inkişafı: insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirildi. Forumda 120-dən artıq ölkədən 800-dən çox nümayəndə iştirak etdi. “Multikulturalizm Azərbaycanda dövlət siyasəti və bizim həyat tərzimizdir" - deyən Prezident İlham Əliyev 2016-cı ilin ölkəmizdə "Multikulturalizm ili", 2017-ci ilin isə "İslam Həmrəyliyi ili” elan olunduğunu bildirdi. Bakıda keçirilən mədəniyyətlərin dialoqu forumları özlüyündə ölkəmizin mədəni inkişafına böyük təsir göstərdi. Bu sahədə Heydər Əliyev Fondunun mədəni diplomatiya sahəsində əldə etdiyi böyük uğurlar ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırmışdır.

Ölkəmizin beynəlxalq sferaya inteqrasiyasında növbəti addım kimi 2015-ci ilin iyun ayında Bakıda dünya tarixində ilk dəfə olaraq Heydər Əliyev fondunun dəstəyi ilə I Avropa Oyunlarının keçirilməsi xüsusi qeyd olunmalıdır. I Avropa Oyunları Azərbaycanda idmanın, iqtisadiyyatın və turizmin inkişafına, ölkəmizin dünyada tanınmasına, etibarlı imic qazanmasına, mədəniyyətimizin dünyaya nümayiş olunmasına, ixtisaslaşmış kadrların sayının artırılmasına, ölkəmizin böyük təcrübə qazanmasına və digər sahələrdə əhəmiyyətli inkişafa nail olmağa şərait yaratdi.

Ölkəmizdə mədəniyyətin, incəsənətin və muğam sənətinin geniş surətdə inkişaf etməsinin nəticəsidir ki, istedadlı mütəxəssislərimiz xarici ölkələrdə milli musiqimizi nümayiş etdirirlər. 2013-cü ildə III Beynəlxalq "Muğam aləmi" festivalının açılışında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva demişdir: "Əminəm ki, festivalın möhtəşəm proqramı özündə müxtəlif ölkələrin rəngarəng muğam məktəblərinin tarixi ənənələri və nailiyyətləri ilə bərabər, qloballaşmanın və informasiya cəmiyyətinin meyillərini də əks etdirəcək, yeni istedadlar üzə çıxaracaq və muğam aləminə gözəl bir səyahət kimi hamımızın yaddaşında silinməz iz qoyacaqdır [5]. Qeyd edək ki, həmin müsabiqədə Çin, Mərakeş, Türkiyə, Hindistan, İraq, Özbəkistan, ***Fransa, İran, Tunis,*** Amerika, Liviyadan gəlmiş nümayəndələr də iştirak etmişdirlər.

Məlum olduğu kimi, 15 may 2014-cü ildə “Bakı Beynəlxalq Mııltikulturalizm Mərkəzinin yaradılması haqqında “Azərbaycan Respublikasının Prezidenti fərman imzalamışdır. Mərkəz azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək məqsədilə ardıcıl işlər görür. Azərbaycan dilində multikulturalizm modellərini tədqiq və təşviq edir [6]. Bu gün Azərbaycan bütün dünyada mıltikulturalizm məkanı kimi tanınır. Qeyd

eldik ki, Azərbaycan Respublikasının Prezidenti 2016-cı ili Multikulturalizm iili elan etmişdir. Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə keçirilən IV Qlobal Bakı Forumunda münaqişələrin qarşısının alınmasında dinlərarası dialoqun rolu, miqrasiya və mullikulturalizm məsələləri, o cümlədən qlobal təhlükəsizliyin təmin olunması kimi mühüm məsələlər müzakirə edildi. Forumda 27 sabiq president və 23 sabiq baş nazir də daxil olmaqla, 53 ölkədən 300-dən qox nümayəndə iştirak etdi. Bu gün milli azlıqlar öz milli-mədəni mərkəzlərini, assosiasiyalarını və digər qurumlarını yaratmaq hüquqlarından tam istifadə edirlər. Hazırda Azərbaycanda onlarla milli mədəniyyət mərkəzi fəaliyyət göstərir.

Mədəni əlaqələrin təsiri ilə milli ədəbiyyat və incəsənətin inkişafı da xalqın mənəvi aləminin zənginləşməsinə kömək edir. Azərbaycan xalqı öz mədəniyyətini başqa ölkələrin xalqları, ilk növbədə türk xalqları ilə əməkdaşlıq, ədəbiyyat və incəsənətin qarşılıqlı surətdə zənginləşdirilməsi və milli naiIiyyətlərin mübadiləsi əsasında inkişaf etdirir. Müasir dövrdə tüık xalqları arasında mövcud olan mədəni əlaqələr bu xalqların tarixi keçmişinə əsaslanır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bu məsələyə böyük önəm verərək demişdir kı. Azərbaycan sülhsevər ölkə olaraq bütün dövlətlərlə və xalqlarla qarşılıqlı anlaşma, mehriban dostluq və əməkdaşlıq şəraitində yaşamaq istəyir.

XX əsrin 90-cı illərində beynəlxalq təşkilat olan TÜRKSOY-un təsis edilməsi türkdilli xalqlar arasında əməkdaşlığın və əlaqələrin möhkəmlənməsinə böyük təsir göstərdi. Türkdilli xalqların mədəniyyətlərinin təbliği istiqamətində TÜRKSOY dünyanın müxtəlif ölkələrində silsilə tədbirlər həyata keçirdi. Belə tədbirlərin bır çoxu Azərbaycanın görkəmli şəxsiyyətlərinə həsr edilib, Əli bəy Hüseynzadə, Səməd Vurğun, Bəxtiyar Vahabzadə, İlyas Əfəndiyev və digər tanınmış sənətkarların yubileyləri burada keçirilib.

Məlum olduğu kimi, 2017-ci il Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY tərəfindən böyük Azərbaycan Şairi Molla Pənah Vaqifin xatirə ili elan olunub. Şairin 300 illik yubileyi münasibətilə türkdilli ölkələrdə müxtəlif tədbirlər və mərasimlər keçirilib. Azərbaycanın zəngin mədəniyyəti və incəsənəti onun dünyada layiqincə tanınmasına imkan verir.

Mədəniyyət həm də əsas təbliğat vasitəsi, dövlətlərarası humanist əlaqələrin mənbəyidir.

Azərbaycan xalqının milli sərvəti olan xalq mahnılarımız və muğamlarımız bu gün xarici ölkələrdə çox yüksək qiymətləndirilir. Dram və balet əsərlərimiz, milli kino mədəniyyətimiz dünya teatrlarının səhnəsində və ekranlarında uğurla nümayiş etdirilir. Müstəqil respublikamız öz mədəniyyəti, incəsənəti və görkəmli sənətkarları ilə dünya meridianlarına çıxır.

Bakda keçirilən "İslam həmrəyliyi”nə həsr olunmuş layihə çərçivəsində Xoreoqrafıya Akademiyası Musiqili Teatrın səhnəsində "Səmayişəms" rəqs-tamaşasını təqdim etdi. Səhnədə Azərbaycan, Türkiyə, İran, Albaniya, Misir,

Qazaxıstan, Özbəkistan, Tacikistan, Dağıstan, bir sıra ərəb və digər müsəlman ölkələrinə məxsus milli rəqslərdən ibarət vahid ssenari üzrə rəqs-tamaşa nümayiş etdirildi. Rəqs-tamaşa əmin-amanlığın, dostluğun, həmrəyliyin, mehribanlığın və mənəvi birliyin təntənəsini təcəssüm etdirdi. Sivil dünyanın tarixi göstərir ki, millətlər arasındakı qarşılıqlı mənəvi zənginləşmə məhz fərqli, milli sərvətlər arasında zənginləşmə prosesidir. Qloballaşan dünyamızda xalqlar arasında mədəni əlaqələrin genişləndirilməsi, onların ünsiyyət və qarşılıqlı şəkildə bir-birini dərk etməsi həm də həmin xalqların yaxınlaşmasını şərtləndirir.

***XÜLASƏ***

*Məqalədə qloballaşma prosesinin başqa sahələrlə yanaşı, mədəniyyətin inkişafında da rolundan danışılır. Qloballaşmanın əsas cəhətlərindən bıri də odur ki, hər bir xalqa şərait yaradır ki, öz mədəniyyətini və incəsənətini təbliğ etsin. Ölkəmizdə mədəniyyətin, incəsənətin və muğam sənətinin geniş surətdə inkişaf etməsinin nəticəsidir ki, istedadlı mütəxəssislərimiz milli mədəniyyətimizi xarici ölkələrdə nümayiş etdirirlər. Bakıda keçirilən mədəniyyətlərin dialoq-* ***forumları özlüyündə ölkəmizin mədəni inkişafına beynəlxalq aləmdə nüfuzunun daha da*** *artmasına böyük təsir göstərir. Azərbaycanın zəngin mədəniyyəti və incəsənəti onını dünyada layiqincə tanınmasına imkan verir.*

**Irada Imanova**
**Farida Allahverdiyeva**

**GLOBALIZING WORLD AND AZERBAIJAN CULTURE**

**SUMMARY**

In adjoining with other spheres, modern globalization process is also getting expanded with the culture development. One of the main peculiarities of globalizatioan is that, this process allows every nation to propagate its culture and art. It is the result of wide development of culture, arts and mugham art that talented specialists are demonstrating our national culture in foreign contries. Culture dialogue forums held in Baku made a great impact on cultural development of our country and increase of its influence in internatonal world. The very rich culture and art of Azerbaijan makes it to become worthily popular all over the world.

**Ирада Иманова**
**Фарида Аллахвердиева**

**ГЛОБАЛИЗИРУЮЩИЙСЯ МИР И КУЛЬТУРА АЗЕРБАЙДЖАНА**

**РЕЗЮМЕ**

Наряду с прочими сферами, современные процессы глобализации расширяются также и за счет развития культуры. Одним из основных свойств глобализации является и то что она создает каждому народу условия для пропаганды собственной культуры и искусства. Большое развитие культуры, искусства и мугама в стране привело к тому, что наша национальная культура, демонстрируется талантливыми специалистами в зарубежных странах.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 370-375*

Проводимые в городе Баку форумы, посвященные межкулътурным диалогам, сами по себе значительното повлияли на культурное развитие нашей страны и росту ее влияния в международном масштабе. Насыщенная культура и искусство Азербайджана способствуют ее достойному признанию во всем мире.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1.Həsənova V. Qloballaşma prosesinin mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı dialoquna təsiri. "Mədəniyyət dünyası" Bakı, 2005, səh. 127;

2. Əfəndiyev T, Heydər Əliyev – Mədəniyyət və ədəbiyyat. Bakı, "Təhsil", 2013, səh. 10;

3. Aydın Xan (Əbilov). Multimədəniyyət qloballaşmanın poetikası. Dünyanın kulturoloji dərki. Bakı, "Mütərcim", 2009, səh. 17;

4. Həsənov M. Azərbaycan mədəniyyətlərarası dialoq və mədəni dəyərlərin təbliğində oynadığı rol. "Üç nöqtə", 22 fevral 2016;

5. MehdiyevaN. Azərbaycan - Özbəkistan ədəbi-mədəni əlaqələri. "Respublika" qəzeti. 7 oktyabr 2010;

6. Ağamalıyeva C. Multikulturalizmin Azərbaycan örnəyi. "Respublika" qəzeti, 11 iyun 2017.

**Rəyçi: Dosent Məmmədova Elnarə Adil**